

# Ankarada "Fikrət Əmirov gecəsi"

**"Ünlü Azərbaycan bəstəkarı Fikrət Əmirovun anadan olmasının 100 illiyi münasibətilə Ankarada möhtəşəm konsert keçirilib. Tədbirin sonunda Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov konsertdə bəstəkarın əsərlərini böyük ustalıqla ifa edən sənətçilərə fəxri fərmanlar təqdim edib. Bu gözəl, əsrarəngiz musiqi ziyafətinin təşkil olunmasında əməyi keçənlərə təşəkkür edirəm".**

"Facebook"da bu statusu ölkəmizin Türkiyədəki böyük elçisi Rəşad Məmmədov paylaşıb. Qeyd etmək lazımdır ki, hörmətli səfir sosial şəbəkələrdə fəallığı ilə seçilən diplomatlarımızdandır.

Maraqlı və diqqətəlayiq cəhət həm də budur ki, bu status onlarca sosial şəbəkə izləyicisinin diqqətini cəlb edib və onu çox sayda "layk"la "mükafatlandırıblar". İzləyicilər Fikrət Əmirovun ecazkar musiqisinə sonsuz heyranlıqlarını bildiriblər. Məsələn, tədbir iştirakçısı Xeyransa Fətəliyeva konsertdən inanılmaz zövq aldığını vurğulamağı özünə borc bilib.

Xatırladaq ki, bu il noyabrın 22-də dünya şöhrətli bəstəkar Fikrət Əmirovun anadan olmasının 100 illiyi tamam olur. Azərbaycan professional bəstəkarlıq məktəbinin ən parlaq nümayəndələrindən olan Fikrət Əmirov "Şur", "Kürd ovşarı" simfonik muğamları, "Nizami" simfoniyası, "Sevil" operası, "Min bir gecə" baleti və başqa ölməz əsərlərin müəllifidir. Böyük bəstəkar 1984-cü ildə dünyasını dəyişib.

**"Xalq qəzeti"**